Yeni Azərbaycan.- 2025.- 28 oktyabr, №195.- S.8.



# Sözün işığında yaşayan insan

## Mirzə İbrahimov dilimiz uğrunda ömür verən yazıçı idi...



Azərbaycan ədəbiyyatının tarixində elə şəxsiyyətlər var ki, onların adı çəkiləndə sadəcə bir yazıçı, dramaturq, ictimai xadim yada düşmür. Onların adı bir dövrün nəfəsi, xalqın düşüncəsi, millətin iradəsi ilə eyniləşir. Bu adlardan biri, bəlkə də birincisi Mirzə İbrahimovdur.

Mirzə İbrahimov təkcə yazıçı deyildi. O, xalqın dilində danışan, dərdini duyan, xalqın taleyinə yön verən bir fikir nəhəngi idi. Onun əsərlərində, çıxışlarında, mübarizəsində bir məfkurə vardı - azərbaycançılıq ideyası, dil və milli kimlik uğrunda mübarizə. Yazıçı və ədəbiyyatşünas alim olmasına baxmayaraq, əsl dilşünas səriştəsi ilə ana dili haqqında bir sıra məqalələr yazıb, Azərbaycan dilinin inkişafı və tətbiqi uğrunda var qüvvəsi ilə çalışıb.

Bu gün Mirzə İbrahimovun anadan olmasından 114 il ötür. Yazıçı uşaqlıq illərindən yoxsulluğun ağrısını görmüşdü. Amma elə o illərdə də xalqına, torpağına sevgi onun qəlbində bir çıraq kimi yanmağa başlamışdı. Bu çıraq da ömrünün sonuna qədər sönmədi...

**Sözün və vətəndaşlığın harmoniyası**

Mirzə İbrahimovun qələmindən çıxan hər bir əsər sadəcə bədii mətn deyil, xalqın taleyini daşıyan bir güzgüdür. O, yazılarında xalqı, əzmkarlığı, həmçinin sevgi ilə dolu həyatı tərənnüm edirdi. “Gələcək gün”, “Pərvanə”, “Böyük dayaq”, “Həyat”, “Kəndçi qızı” və digər əsərlərini xüsusilə qeyd edə bilərik. Amma onun böyüklüyü yalnız ədəbi yaradıcılığında deyildi. Mirzə İbrahimov xalqına ürəkdən bağlı bir ziyalı idi. 1956-cı ildə Azərbaycan dilinə dövlət dili statusu verilməsi məsələsində onun qətiyyətli mövqeyi tariximizin qızıl səhifəsidir. O, dilimizi sadəcə bir ünsiyyət vasitəsi kimi deyil, xalqın varlığı, kimliyi, ruhu kimi müdafiə edib.

**Müdrikliyin və sadəliyin simvolu**

Onu tanıyanlar deyirdilər ki, Mirzə İbrahimovun baxışlarında bir ata mehribanlığı, bir alim dərinliyi, bir yazıçı həssaslığı var idi. Onun yanında olmaq, onunla söhbət etmək sanki insanın ruhunu təmizləyirdi. Mirzə İbrahimov şöhrət arxasınca qaçmadı, vəzifə üçün deyil, vətən üçün yaşadı. Onun üçün ən böyük mükafat xalqın sevgisi idi və o sevgini qazandı. Çünki o, xalqın içindən gəlmişdi, xalqın dərdini də, sevincini də yaxşı bilirdi.

**Əbədi işıq...**

Mirzə İbrahimovun ömrü 1993-cü ildə tamamlandı, amma onun ruhu, sözü, idealları bu gün də bizimlədir. Yazdığı əsərlər bu gün gənclərə Vətənə sevgi, insana inam, milli şüur aşılayır.

*Yeganə BAYRAMOVA*